PALMALİ
GROUP OF COMPANIES

Bitiklər **PALMALİ** Şirkətlər Qrupunun prezidenti
sayın Mübariz Qurban oğlu Mənsimovun
dəstəyi ilə işıq üzü görmüşdür.

«**Doqquz Bitik**» sırası

**I Bitik.** TARİXİ QAYNAQLAR

**II Bitik.** TARİXİ COĞRAFİYA

**III Bitik.** ÖN ASİYADA QƏDİM TÜRK DÖVLƏTLƏRİ

**IV Bitik.** TARİXİ ETNOQRAFİYA

**V Bitik.** MİFOLOGİYADA TARİX

**VI Bitik.** ƏDƏBİYAT VƏ FOLKLORDA TARİX

**VII Bitik.** TÜRK DİLİNİN TARİXİ

**VIII Bitik.** TARİXİ ONOMASTİKA. TÜRK BOYLARI

**IX Bitik.** TÜRKLƏRİNİN SOYKÖKÜ. URMU TEORİYASI

*Firudin Ağasıoğlu*

9 BİTİK
İSLAMÖNCƏSİ TÜRK TARİXİ

V BİTİK

# MİFOLOGİYADA TARİX

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

İSTANBUL - 2022

Elmi redaktor: *AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar Kazımoğlu,*
*Prof. Dr. Cəlal Bəydili*

Redaktor: *Prof. Dr. Ramiz Əskər, Həlimə Rzaquliyeva*

**Firudin Ağasıoğlu.** İslamöncəsi Türk tarixi. (Doqquz Bitik); V Bitik: Mifologiyada tarix. İstanbul, 2022, 455 s.

Türk etnosunun Atayurdunu və mənşəyini Ön Asiyada müəyənləşdirən 9 tomluq «Islamöncəsi Türk tarixi» (Doqquz Bitik) adlı əsər yazarın bu sahədə apardığı 30 illik tədqiqatın sonucu kimi ortaya çıxmışdır. Bütövlükdə türk xalqlarının tarixini yeni konsepsiya olan Urmu teoriyası ilə ortaya qoyan bu tədqiqat işi tarixi qaynaqlar, tarixi coğrafiya, Ön Asiyada qurulan qədim türk dövlətləri, tarixi etnoqrafiya, tarixi onomastika, folklor və mifologiyada tarix, türk dilinin tarixi və türk xalqlarının, bu sırada azər türklərinin etnogenezi (soykökü) mövzularını ayrı-ayrı bitik-kitablarla əhatə edir.

V Bitikdə türklərin mifologiyasında görünən tarixi bəlgələrin ortaya çıxarılması yönündə aparılan araşdırma gədim türklərin inanc və dünyagörüşü, mifdən dinə keçid, təktanrılıq sistemində Türk tanrıçılıq dini, bəzi türk boylarının ayrı-ayrı dinlərə keçməsi, tapınaqlar, kultlar kimi mövzuları əhatə edir. Bu Bitikdə türk etnosunun mənəvi-mifoloji kultur dəyərləri Ön Asiyanın qədim xalqlarının mifologiyası ilə olan əlaqəsi fonunda gözdən keçirilir, mifoloji bəlgələrə və tarixi qaynaqlara dayanan yazarın Urmu teoriyası türk etnosunun mifologiyası fonunda Anadolu-Azərbaycan türklərinin gerçək tarixinin ortaya çıxması yönündə önəmli yorumlara ipucu verir.

(Müəllif hüququları agentliyi. Şəhadətnamə № 5797)

© *Firudin Ağasıoğlu (Cəlilov)*

ISBN 9-789952810868

A 4603010000 / A-064-2014 ---- qrifli nəşr

9 789952 810868

**Kapak ve Kitap Tasarımı:** ÖZGÜR ÖZDOĞAN
**Üretim Müdürü:** YAKUP AKYILDIRIM
**Baskı:** YIKILMAZLAR BASIN YAYIN PROM. ve KAĞIT SAN. TİC. LTD. ŞTİ
15 Temmuz Mah. Gülbahar Cad. No: 62/B Güneşli-Bağcılar-İSTANBUL Tel: 212 515 4947
Sertifika No: 45464

## BAŞLIQLAR

Giriş .......... 5

**I. Türklərin mifoloji dünyagörüşü** .......... 15
Mifologiyada Zaman-Məkan (*Öd-Alan*) qavramı .......... 19
Yaranış mifləri .......... 34
Ölüb-dirilmə mifonimləri .......... 48
Yaşam Ağacı və Yaşam Suyu (eliksir) .......... 56
Mifologiyada say bildirən sözlər .......... 62
Mifologiyada boya (rəng) bildirən sözlər .......... 68
Mifologiyada simvollar .......... 75

**II. Kultlar və tapınaqlar** .......... 88
Gün-Ay və Ulduz kultu .......... 96
Göy və Yer-Su kultu .......... 101
Dağ-daş kultu. Yada daşı .......... 107
Ağac kultu .......... 115
Od və ocaq kultu .......... 120
Qılıc kultu .......... 124
Añ kultları .......... 128
At kultu .......... 132
Təkə, qoç-qoyun və maral kultu .......... 142
İlan, bükə (əjdaha) və bağa kultu .......... 147
Börü (bozqurd) kultu .......... 151
Tapınaq, ocaq və pirlər .......... 170
Qurban vermə gələnəyi .......... 182

63.2(5)+82.3(5)
A35

**III. Mifologiyadan dinlərə keçid** .......................... 186
Çoxtanrılı və Təktanrılı dinlər .......................... 209
Tanrı elçiləri .......................... 223
Tanrı elçisi İbrahim Azər oğlu .......................... 231
**IV. Tanrıçılıq** (*Bir Teñri*) .......................... 284
Tanrıçılıqda *qut* və *tın* mifonimləri .......................... 299
Tanrıçılıqda *iyə* və *tanrı* qavramları .......................... 305
Tanrıçılıqda *qam, maq, baxşı* və başqa din adamları .......................... 318
**V. Türk toplumunda klassik dinlərə münasibət** .......................... 330
Budizm .......................... 333
Mazdaizm və Zərdüştilik .......................... 336
Maniçilik .......................... 351
Yəhudilik .......................... 365
Xristianlıq .......................... 372
**VI. Türk mifologiyasının Ön Asiya qaynağı** .......................... 417
Qaynaqlar (*Ədəbiyat*) .......................... 437



## GİRİŞ

Bir xalqın mifologiyası qədim çağlardan yaşadığı coğrafiya, ətraf mühit, oturaq və köçəri yaşamı, təsərrüfat türləri, kosmoqonik düşüncə, inanc və tapınaqları, folklor və etnoqrafik gələnəkləri, bölgədəki başqa xalqlarla savaş-barış münasibəti, sosial qurumların tarixi aşamalar üzrə gəlişməsi kimi bir çox sahələrlə bağlı olub «mifik» çağda formalaşır. Bu çağ isə çox uzun bir dövrü əhatə edir, ilkəl toplum dönəmindən başlayıb, mifdən dinə keçid dönəminə qədər minillər boyu davam edir. Elmi ədəbiyatda *mif* (yunanca *mythos*) sözü dünya modelinin təsəvvür olunma sistemi və onun sözlə təsvir olunan mətnləri anlamında işlənir. Tarixilik dünyagörüşündən öncə dünyanın təsvirinə xüsusi düşüncə tərzilə yanaşan miflər dil, folklor, arxeologiya, etnoqrafiya bəlgələri əsasında bərpa oluna bilir.

Geniş ölçüdə dünyanın, dar ölçüdəsə çevrənin mifoloji qavramında emosional duyğu rasional dərketməni üstələyir, ona görə də, mifik alqılar metaforik deyimlərlə ifadə olunub fantastik bənzətmələrlə bəlirlənir. Mif gerçək durumun görünməyən tərəfini dəyərləndirmək üçün məcazlardan istifadə etdiyindən formal məntiq baxımından mifik təsvirlər uydurma və mifik yorumlar fantaziya kimi alqılanır, ancaq mifik təsvir və yorumların yarandığı çağdakı toplumda bunlar gerçək baxışlar sayılırdı.

Çağdaş insanlardan fərqli olaraq, qədim insanlar doğaya (təbiətə) daha həssas idilər, onlar yaşam durumu ilə ilgili çevrədəki hər şeyə canlı varlıq kimi baxırdılar. Biz bu gerçək durumu doğru anlamaq üçün XX əsrin sonunda sınaqla sübut olunan elmi yozumların, özəlliklə, sinergetika ilə bağlı yeni kəşflərin gerçəkləşməsini də gözləməliymişik: artıq bəlli olur ki, ovqatımıza, sağlamlığımıza, bir sözlə, yaşamımıza təsir edə bilən çevrəmizdəki cançız saydığımız şeylərin - divarın da, suyun da, daşın da, ağacın da yaddaşı və özəl informasiya dalğaları varmış. Görünür, bu dalğalara qədim insanlar bizdən daha həssas olmuşlar. Biz 5 duyğu üzvüylə müəyən həddəcən varlığı üçölçülü alqılayırıq, ancaq varlıq çoxölçülüdür, əgər alqılama imkanı çox olsa, bu çoxölçülü varlığın bizə bəlli olmayan özəllikləri də alqılana bilər, necə ki, xüsusi cihazlarla ultra səsləri eşidir, çox uzaqdakı varlığı görürük.

Tarixi yaşamda aşamalar boyunca sosial toplumun yeni qurumları (*boy, budun, el*) yarandıqca mifoloji dünyagörüşə aid baxışlarda dəyişmələr də baş verirdi, belə ki, soy-boy sosial qurumunda yaşayan insanla el (xalq) qurumu aşamasında yaşayan insanın dünyagörüşü arasında olan fərq cəmiyyətin inkişaf səviyyəsilə bağlı olub, toplumun mifologiyasında öz izini qoyurdu. Örnəyin, uruq-klan qurumunda yaranan totemizm sonrakı budun-el qurumunda yarana bilməzdi, yalnız donuq türdə davam edə bilərdi, çünki ilkin yaranma səbəbləri artıq bu sonrakı sosial qurumlarda öz mahiyyətini itirib aradan çıxmışdı. Əksər dünya xalqlarının mifologiyası müəyən tarixi aşamada gündəmə gəlmişdir, önəmli olay və varlıqların təfəkkürdə yaratdığı obrazların modelləşməsi, gündəlik yaşamda qarşıya çıxan problemlərin həllinə yardım edən (təskinlik verən) ritualların sistemə oturuşması mifoloji baxışların gəlişməsilə sonuclanmışdır.[1]

Ətrafdakı quşların, heyvanların, insanların doğumu ilə ölümü arasında görünən başlanğıcla sonucu olan yaşam yoluna paralel bir də o biri tərəfi görünməyən sonsuz dəniz sularının, durmadan axan çayların, qarşısında dim-dik duran dağların, ayağı altında Yerin, başı üzərində Günəşin, Ayın, Ulduzların və Göyün görünməyən sonsuzluq yolu olduğunu duyan insanoğlu bu iki - sonu olan və sonsuz yolun ruhu varlığına inanmış və bu inanc Yaradana yalvarmaqdan dua edib qurban vermə törəninə, ibadətdən itaət duyğusuna aparan formalaşma mexanizmi yaratmış, sonrakı dini görüşlərdə olduğu kimi, bu mexanizmin təpəri artıq özü öz sisteminin etiketlərini yaradıb təkmilləşdirmişdir. Artıq formalaşmış bu sistemdə kultlar, tapınaqlar yaranır, qutsal sayılanlara alqış deyib dua edilir, ziyan verən yamanlarsa yasaqlanıb lənətlənirdi.

İlkəl toplumda insan öncə yaşamına imkan verən və mane olan hər şeyə maraq gösrətib gerçək durumu anlamağa çalışır. Beş dyğu ilə sezilən, duyulan, alqılanan varlığın, nəsnənin, olayın bilincə yansımış ölçü-biçimi (təsəvvürü) təsvir edilə bilirsə, bu, gerçək durumu əks etdirir, gerçək təsviri mümkün olmayansa düşüncədə fantastik yorumlar yaradır. Belə çətin qav-

[1] Uzmanlar törən ilə mif arasında olan qarşılıqlı təsirdən danışarkən bəzisi mifdən ritual (törən) yarandığını, bəziləri də mifin törəndən yarandığını söyləyir. Əslində, miflə ritual bir medalın iki üzü kimi eyni vaxtda bir-biriylə bağlı yaranır, konkret bir mifik təsəvvür və təsvir sözdə (mif) və əməldə (ritual) qəliblənir.



ranılan, ölçü-biçimi bilinməyən tapmacalar mifoloji motiv və obrazların, əfsanələrin yaranmasına səbəb olur və bunlar da zaman aşamasında bölgəsəl toplumda mifik düşüncəni və mifoloji baxışları formalaşdırır. Oturuşmuş mifoloji baxış bucağından «görünənlər» artıq gerçək durum kimi iddia olunur, qəbul edilir və bu yöndə bəlli sözlərə əlavə mifik anlam da yüklənir. Bugün mifoloqlar məhz həmin sözlərin daşıdığı anlamları öyrənməklə minillər öncəki mifoloji dünyagörüşü bərpa edə bilir.

Sosial toplumun boy-budun aşamasında mifoloji dünyagörüşün artıq ortaya çıxan bir sıra yeni suallara qane ediçi cavab vermə təpərini itirməyə başlaması, ilkəl soy-boy tanrılarının mövcud zəif durumu, problemlərin həllində magiyanın gücsüzlüyü ötəki dünyanın olub-olmamasını, dünya düzəninin yaranma səbəbini, bunu yaradanın kimliyini öyrənib anlamaq istəyən insanların doğal tələbini ödəmirdi. Bu zaman aşamasında insanlar istədikləri suallara, bütov toplumun yaşamında qarşılaşdığı olaylarla ilgili ortaya çıxan problemlərə «cavab verə bilən» yeni yöntəmli sosial-mənəvi dinlərə üz tutdular. Beləliklə, mifologiyadan dinə keçid dönəmi və yeni dinlərin yaranma dönəmi başlandı. Yeni dinlər də öz mifologiyasını və öz folklorunu yaratdı.

Mifologiyaya olan maraq hələ antik çağda onun öyrənilməsini gündəmə gətirmişdi, Sokrat, Platon, Aristotel kimi bir çox filosoflar miflərin mahiyyətilə bağlı problemləri, mifoloji süjetləri, obraz və olayları təhlil etmiş, mifoloji dünyagörüşü haqqında öz baxışlarını ortaya qoymuşlar, bu da artıq mif nəzəriyələrinin başlanğıc mərhələsi sayıla bilər. Platon mifin fəlsəfi-simvolik yorumunu xalq mifologiyası ilə qarşılaşdırırdı, sofistlər mifə alleqorik yorum verirdilər, sonralar stoiklər də bunu qəbul etdi. Bu dönəmdə mifoloji materiala rasional baxımdan yanaşma sonucunda antik çağın fəlsəfəsi formalaşdı. Antik çağda yazarlar əsərlərində mifik süjet və obrazlardan bəhrələndiyi kimi, bunların toplanması ilə də məşğul olurdu. Apollodorun tərtib etdiyi «Mifologiya kitabxanası» əsərindən o dönəmin bir çox yazarı istifadə etmişdir.[2] Bu baxımdan, antik çağda başlayıb, orta əsrlərdə, özəlliklə renesans dönəmində davam edən mifoloji araşdırmalar və yorum-yozumlar XVIII-XIX əsrlərdə bu sahəni yeni elmi yontəmlərlə

[2] *Аполлодор,* 1972.

ciddi bilim alanına oturtdu. «Yeni bilim» yazarı italiyalı uzman G.B.Viko tarixi inkişafın dialektik anlamı üzərində qurduğu mifin fəlsəfəsini uyqarlığın aşamalı tarixinə bağlayırdı. Bu baxışda tanrısallıq, ərdəmlik və insanlıq çağları sosial toplumun və ümumi təfəkkürün uşaqlıq, gənclik və yetkinlik çağı kimi dəyərləndirilirdi. Alman filosofu F.V. Şellingin sənətkarlıq fəlsəfəsindəsə antik, qədim şərq və xristian mifologiyasının müqayisəli özəllikləri kimi məzmunca bəlirlənən tarixi-kultur duyumun yunanlarda qabarıq simvolika, hindlərdə alleqoriya, perslərdə sxematik tutumlu olması göstərilirdi.

XIX əsrin ortalarından sonra mifologiyaya aid iki müxtəlif tədqiqat yöntəmi gündəmə gəlmişdi, bir tərəfdə Y.Grimmin alman mifologiyasına dayanan, ancaq romantik baxışlardan tam ayrılmayan M.Müller, V.Şvarts, A.Kun, F.Buslayev, A.Afanasyev kimi yazarlar hindavropa dilləri üzrə yeni yaranan müqayisəli araşdırmaların uğurlarından ilham alıb, mifləri də bu yöntəmdə öyrənirdilər. Bu sıranın başnı çəkən M.Müller ari xalqlarında miflərin yaranmasını etimoloji yöntəmlə yorumlayan dilçilik konsepsiyası yaratmışdı. Burada tanrıların doğal olaylar və göydə görünən cisimlərin simvolu kimi açıqlandığı *solyar-meteoroloji* baxışa da yer verilirdi.

İkinci araşdırma yöntəmisə İngiltərədə müqayisəli dilçiliyin deyil, müqayisəli etnoqrafiyanın (E.Taylor, E.Lang) üzərində qurulan antropoloji məktəb idi. Burada hindavropa materialı deyil, *etnoqrafik-antropoloji* kultur baxış bucağı altında geridə qalmış arxaik yaşamlı xalqlarla inkişaf etmiş mədəni xalqların mifologiyası müqayisə olunurdu. İlkəl topluma xas olan gələnək-görənəklərlə yaşayan arxaik boyların mifologiyasının öyrənilməsi bir çox məsələlərə xeyli aydınlıq gətirdi. İndi mifologiya elmində aparıcı mövqedə fransız etnoloq Klod Levi-Strossun psixoloji alqı üzərində qurduğu struktur sistem teoriyası durur.

Miflərin mahiyəti, yaramnası, quruluşu və funksiyası müxtəlif yöntəmlərlə araşdırıldığı üçün mifologiya elmində bir sıra teoriyalar ortaya çıxmışdır. Antropologiya, etnoqrafiya, psixologiya, astrologiya, fəlsəfə, kulturologiya və teologiya elmlərində işlənən semantik-struktur ölçü və biçimlərlə mifoloji mövzuları təhlil etmək cəhdləri çox vaxt araşdırılan



məsələyə aydınlıq gətirmə əvəzinə dolaşıq anlamlarla sonuclanırdı, hətta «mif» termini o qədər anlamlarla yüklənmişdir ki, mifologiya elminin bu əsas tədqiqat obyekti konkret *«varlıq alqısının ilkəl toplumda yorumu»* anlamından yayınıb, abstrakt bir məfhuma çevrilmiş və *mif* sözünün özü də daşıdığı ilkin anlamdan uzaqlaşıb terminə xas olmayan çoxmənalı söz olmuşdur.

Mif nəzəriyəsilə bağlı müxtəlif yönlü məktəblər və çoxlu tədqiqatlar vardır.[3] Mövzumuz çoxşaxəli mifologiya elminin problemləri deyil, türk etnosu tarixinin mifologiyada buraxdığı izləri araşdırmaq olduğundan bu yöndə istifadə etdiyimiz bir sıra terminlərə ayadınlıq gətirməyə ehtiyac vardır, ancaq mifologiyada istifadə olunan terminlər, deyimlər haqqında burada deyil, uyğun bölmələrdə yorumların verildiyini nəzərə alıb, yalnız terminlərə baxış yöntəmini açıqlamaq üçün bir-iki örnək vermək olar.[4]

Dildə yeni sözlərin yaranması motivli və motivsiz anlamlarla bağlı olur, örnəyin, planet adı kimi *Ay* sözü motivsiz, təqvimlə bağlı yananmış *ay* sözüsə öncəki sözün daşıdığı anlama dayanan motivli sözdür. Belə ki, birinci sözün (işarə edənin) bildirdiyi məfhumla (işarə olunanla) orqanik, daxili bağı yoxur, ikinci sözdəsə belə bağ var, çünki onunla işarə olunan məfhum Ay planetinin mahiyətindən doğmuşdur. Mifoloji sözyaradıcılığı isə bir qədər fərqlidir, burada işarə edən söz (və ya simvol) ilə işarə olunan məfhum (*denotat*) arasında əlaqə türü əsasən daxili-orqanik motivli olur, çünki uşaqlar 3-4 yaşı olanda əlində tutduğu oyuncaqlarla danışdığı kimi, ilkəl toplumda adamın divara çəkdiyi simvollarla «danışması» da o çağın doğal durumu idi, ona görə də, mifoloji sözlər metaforik obrazlı deyimlər sistemi kimi ortaya çıxırdı. Sonralar bu sözlərdəki daxili motivli əlaqə nə qədər aşılansa da, yenə çoxunda metaforik işarələnmə özünü hiss etdirir.

---

[3] E.Taylor, C.C.Frezer, K.Yunq, Z.Freyd, L.Levi-Bryül, K.Levi-Stross, O.M.Freydenberq, V.Propp, E.Kassirer, M.Eliade, R.Bart, N.Konrad, A.A.Potebnya, F.İ.Buslayev, M.Lotman, A.F.Losev, V.N.Toporov, A.N.Afanasyev, E.M.Meletinski və bir sıra başqa tanınmış uzmanlar mifologiyanın ayrı-ayrı sahələrini fəlsəfi, antropoloji, psixoanalitik, sosial-mədəni, struktural, semantik-simvolik, tarixi-genetik, tarixi-müqayisəli və başqa yöntəmlərlə araşdırmışlar.

[4] Belə terminoloji sözlüklər üçün «Dünya xalqlarının mifologiyası» və «Türk mifoloji sözlüyü» kitablarına baxmaq yararlı olar: *MHM*, 1991-1992; *Bəydili*, 2003.

Mifologiyada *model* anlayışını forma-məzmun vəhdəti kimi yorumlamaq olar, belə ki, eşidilən səslərə uyğun dildə *imitativ* (yamsılama) sözlər motivləşmə ilə yarandığı kimi, mifik modelləşmə də bölünməz semantik-struktur alqıya dayanır. Mifik modellərin qavranılmasını asanlaşdırmaq üçün onun sinkretik simvola yüklənmiş özəlliyi qabardılır. Bu baxımdan, fantastik olaylar mifoloji paradiqmada öz modelini, simvolunu rahatca tapır, hətta, bu durumda «gerçək görünə bilən» yorumlar da ortaya çıxır.

Müxtəlif xalqların mifologiyasında, dini inanc və kulturunda oxşar və təkrar olunan ümumi mifik süjet, obraz, görənək və durumlar mifoloji quruluşun bəlirli vaihdi kimi ***mifologem*** adlanır. Örnəyin, qut, tin, dünya ağacı, daşqın, soybabası və sair bu kimi mifik məfumlar mifologem sayılır. Mifoloji quruluşun yorumu üçün uğurlu termin olan, lakin mifoloqların çox yayğın anlamda işlətdiyi *mifologem* deyimindən konkret struktur vahidi kimi yeri gəldikcə istifadə edəcəyik. Belə ki, mifoloji yük daşıyan ayrı-ayrı söz və deyimləri ***mifonim*** və sinonim anlamla eyni semantik sırada yer alan mifonimlərin ümumi adını *mifologem*, bu sıranın başını çəkən mifonimin *mifologem arxetipi* terminlərilə bəlirləmək yöntəmini gərəkli sayırıq. Örnəyin;

Mıfologem - 1) Həyat Ağacı, Yaşam Ağacı ...
2) Dünya Ağacı, Dünya Oxu, Altun Qazıq, Bay-Terek ...
(mifonim) + (mifonim) + (mifonim) + (mifonim) ...

Arxetiplər - 1) ****yaşam ağacı*** (**qadın* ~ qayın ağacı); 2) ****dirək***

Fonologiyada fonemlər sözün təşkiledici elementi olduğu kimi mifologiyada da mifonimlər mifologemin təşkiledici elementidir və hər iki element (fonem və mifonim) oz sırasında olan elementlərdən ən azı bir fərqləndirici əlamətinə görə fərqlənir, əks halda onların mövcud olması mümkün olmaz. Bu duruma Azərbaycanın görkəmli filosofu Şihabəddin Yəhya Sührəvərdi hələ XII əsrdə dəqiq yorum vermişdir: «Aralarında fərqləndirici olmayan iki şeyin mövcudluğu qeyri-mümkündür, yoxsa o ikisi vahid bir şey olardı».[5]

---

[5] *Sührəvərdi*, 1989, 26.



Görünən bir obyektin gerçək alqısı ona hansı baxış bucağından baxılmasndan asılıdır. Örnəyin, verilən bu şəkildəki kimi, silindrik bir əşya yandan baxılanda dairə (I baxış), öndən baxılanda düzbucaqlı (II baxış) kimi görünür, tam gerçək alqı üçün hər iki tərəfdən baxmaq gərəkir və ya digər şəkilə ötəri baxanda spiralvari dairələr, diqqətlə baxanda bir-birilə kəsişməyən dairələr görünür. Deməli, adi halda da gördüyümüz varlığın gerçək ölçü-biçimində yanılmalar ola bilir, görə bilmədiyimiz varlığı təsəvvür etmək istəyəndəsə belə yanılmalar lap çox olur. Biz görənəkləri gözümüzlə görsək də, görən gözümüzü yalnız əks olunduğu güzgüdə, fotoda görə bilirik. Mifoloji «görmələr» isə belə deyil, əksinədir, görünənin gerçək durumunu və mahiyətini görə bilmir, çünki öncədən qafasında oturuşmuş ölçü-biçimlə ona baxır və görmək istədiyini onda «görə bilir», bunu gerçəklik kimi dəyərləndirib, gerçək olduğuna inanır.





Spiral kimi görünən dairələr

Mifoloji personaj arxetipləri arasında gerçək varlıq axtarışına olan meyl son dovrlərdə artmaqda və fantastik roman və filmlərlə yanaşı elmi-populyar televiziya verilişlərilə, elmi-fantastik araşdırmalarla yayılmaqdadır. Bu yöndə ortalığa çıxan çeşidli varsayımlar sırasında «Yer kürəsində sivilizasiyanın milyon illər öncə bir neçə dəfə yaranıb-dağılması», «Yer kürəsində bizim görə bilmədiyimiz paralel yaşamın və paralel dünyanın varlığı», «Başqa planetlərdən gəlmələr», «Gələnlərin tanrılar və mələklər kimi algılanması» və bu tür dəbdə olan yorumlar yer almaqdadır.

Dünyagörüşü düşüncəsinin başlanğıc forması kimi mənəvi kulturun özünəməxsus materialı olan miflər insanların mifologiyada düşüncə qaynağıdır, sonrakı daha dolğun inkişafla ortaya çıxan poetik, dini, fəlsəfi və elmi düşüncələr mifologiyanın tərkib hissələrindən törəmişlər. Bu baxımdan, mifləri insanlığın pedagogikası adlandıran Hegel haqlıdır, belə ki, ən rasional teoridə də mifoloji düşüncə elementi olur. Bugün mobil telefonla, uçaqla istədiyimiz adamla görüşə, istədiyimiz yerə uça biliriksə bu gəlişmədə şehirli güzgü, uçan xalça mifonimlərinin də ipucu «payı» vardır.

**Hörmətli oxucu,**

**"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**

